*Cari ilin doqquz ayının yekunları*

# Xəzər rayonu: sosial-iqtisadi sahələrdə uğurlu nəticələr

Respublikanın kənd rayon bölgələrində olduğu kimi, paytaxt Bakının da rayonlarında mədəni quruculuq sahələrinin mənzərəsi gündən-günə dəyişir. 1995-ci ildən üzü bəri bir sıra dünya dövlətlərindən fərqli olaraq ölkədə davamlı ictimai-siyasi sabitliyin qorunub saxlanması, xalqın sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlər, atılan addımlar, aparılan iqtisadi islahatlar, xalqla iqtidar arasında yaranan birlik yuxarıda qeyd etdiklərimizin parlaq təzahürüdür.

Bəli, ölkəmizdəki sabitlik və firavanlıq keçmiş sovet respublikaları üçün örnək ola bilər.

Respublika Prezidenti İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nı, eləcə də oktyabr ayının 12-də dövlət başçısı İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayında ölkənin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası əldə rəhbər tutan, qədim Abşeron torpağının bir hissəsində yerləşən Xəzər rayonunun İcra Hakimiyyətinin başçısı 9 ayda rayonda görülən sosial-iqtisadi, mədəni quruculuq işlərinin nəticələrindən danışmışdır.

22 oktyabr 2015-ci il tarixli hesabat yığıncağında YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, RİH başçısının müavinləri, aparatın şöbə müdirləri, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.

**Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Gülağa İslamov** rayonun sosial-iqtisadi sahələrdə dinamik inkişafının davam etməsini, əsas göstəricilər üzrə müsbət nəticələr əldə edilməsini yığıncaq iştirakçılarının diqqətinə çatdırmış, qarşıda duran vəzifələr haqqında məruzə ilə çıxış etmək üçün sözü RİH başçısının müavini Arif Babayevə vermişdir.

Arif Babayev ötən dövr ərzində rayonun iqtisadi-sosial həyatında, bütün sahələrdə baş verən yüksəlişlə əlaqədar demişdir:

—Ötən dövr ərzində rayon üzrə sənaye məhsulu istehsalı 181 milyon 949,1 min manat təşkil etmişdir. Sənaye məhsulunun ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 99,2 faiz olmuşdur.

Nəqliyyat sektorunda 519 milyon 219 min manatlıq xidmətlər göstərilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 13,1 faiz çox olmuşdur.

Rabitə müəssisəsi tərəfindən idarə və təşkilatlara, əhaliyə faktiki qiymətlərlə 4 milyon 945,1 min manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 113,3 faiz çox rabitə xidməti göstərilmişdir.

İlin doqquz ayında rayonun tikinti kompleksində iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına 307 milyon 420,1 min manat məbləğində investisiya cəlb edilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 90,1 faiz çox olmuşdur. İstifadə edilmiş investisiyaların 45 milyon 914,6 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 32,5 faiz təşkil etmişdir.

İstehlak və xidmət bazarlarında əhaliyə 346 milyon 850,8 min manatlıq istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir. Pərakəndə əmtəə dövriyyəsi 170 milyon 620,5 min manata, pullu xidmətlərin həcmi 176 milyon 230,3 min manata çatmışdır.

Ticarət şəbəkəsindən satılmış məhsulların 14,2 faizi hüquqi şəxs kimi fəaliyyət göstərən ticarət təşkilatları, 85,8 faizi isə hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fiziki şəxslər tərəfindən realizə olunmuşdur.

Rayonun iqtisadi və sosial sahələrində işləyənlərin orta aylıq əmək haqqı 590,6 manat, sənaye sahəsində çalışanların orta aylıq əmək haqqı 793,2 manat, tikinti kompleksində çalışanların orta aylıq əmək haqqı 667,4 manat təşkil etmişdir.

Hesabat dövründə rayon üzrə 1405 yeni iş yeri açılmışdır. Bunun 45-i yeni yaradılmış müəssisə və təşkilatlar, 194-ü mövcud müəssisə və təşkilatlar, 1166-sı isə fiziki şəxslər tərəfindən açılmışdır. Ümumiyyətlə, son 12 il ərzində rayon ərazisində 18 min 621 yeni iş yeri açılmışdır.

Ötən dövr ərzində rayon ərazisində tikinti və quruculuq işləri davam etdirilmiş, küçə və meydanlar, parklar abadlaşdırılmış, ayrı-ayrı ictimai binalarda, əsas yollarda, qəsəbədaxili küçələrdə təmir işləri aparılmış və yenidən qurulmuş, su və kanalizasiya sistemləri yeniləşdirilmiş, yeni xidmət və istehsal müəssisələri, bir sıra sosial-mədəni obyektlər tikilərək əhalinin istifadəsinə verilmişdir.



Hesabat dövründə Qala-Şüvəlan yol ayrıcında müasir memarlıq üslubunda monument tikilərək istifadəyə verilmişdir. Ərazidə əlavə olaraq 1000 kvadratmetr qazon salınmış, 300 ədəd ağac əkilmiş, suvarma məqsədilə su xətti çəkilmiş və işıqlandırma sistemi quraşdırılmışdır.

Hazırda Şüvəlan qəsəbəsinin mərkəzi Almaz İldırım və Mərdəkan qəsəbəsinin Yesenin küçələrinin yenidən qurulması, o cümlədən divarlara aqlay daşının vurulması, səkilərin müasir üslubda yenidən qurulması, yolboyu milli və tarixi elementlər nəzərə alınmaqla qədim tikililərin bərpası istiqamətində işlər davam etdirilir. Bu məqsədlə Şüvəlan və Mərdəkan qəsəbələrində hasarlara 6620 kvadratmetr aqlay daşı, 952 poqonmetr bəzək daşı vurulmuş, 825 poqonmetr bordür salınmış, 1211 kvadratmetr səki daşı vurulmuş, bina və hasarların fasad hissəsinin işıqlandırılması məqsədilə 68 ədəd fənər quraşdırılmışdır. Şüvəlan qəsəbəsinin A.İldırım küçəsində 620 kvadratmetr köhnə hasar sökülərək yenidən tikilmiş, 200 kvadratmetr hasar isə bərpa olunmuşdur.

Yaşıllıqların salınması ilə əlaqədar 2015-ci ilin 9 ayı ərzində rayon ərazisində idarə, müəssisə və təşkilatların iştirakı ilə 33 min 587 ağac əkilmişdir. "İDEYA" İctimai Birliyinin təşəbbüsü ilə 1-ci Ümumrespublika Yaşıllaşdırma Marafonu çərçivəsində təkcə mart-aprel aylarında rayon ərazisində 10 min ağac əkilmişdir. Hazırda da ərazilərdə yaşıllıqlara aqrotexniki qulluq işləri davam etdirilir.

Görülən bu işlər Xəzər RİH-in daxili imkanları hesabına həyata keçirilib.

Hesabat dövründə asfalt yolların əsaslı və cari təmiri istiqamətində daxili imkanlar hesabına Mərdəkan, Şüvəlan, Şağan, Binə və Zirə qəsəbələrində 26 min 950 kvadratmetr, Dövlət Proqramı çərçivəsində isə 3460 kvadratmetr yeni asfalt örtüyü salınmışdır.

Qaz təchizatı ilə bağlı hesabat dövründə rayonunun Qaz İstismar Sahəsi tərəfindən əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində Buzovna qəsəbəsində 6221, Binə qəsəbəsində 1200, Qala qəsəbəsində 6031, Şüvəlan qəsəbəsində 3159, Mərdəkan qəsəbəsində 3977, Şağan qəsəbəsində 2230 poqonmetr olmaqla cəmi rayon üzrə 2818 poqonmetr qaz xətti çəkilmiş və dəyişdirilmişdir.

Rayonda əhali tərəfindən istifadə olunan təbii qazın ödənişi 101,6 faiz, abonentlərin ödənişdə iştirakı isə 64 faiz olmuşdur.

Rayonun Enerji Təchizatı və Satış İdarəsi tərəfindən əhalinin elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq məqsədilə rayon ərazisində 4 ədəd yeni transformator məntəqəsi quraşdırılmış və 15 ədəd güc transformatoru, 13 ədəd KTM dəyişdirilmiş, 683 ədəd TM və KTM təmizlənib və cari təmir olunub, 17617 metr kabel, 2371 metr naqil çəkilib və dəyişdirilmişdir.

Dövlət Proqramı çərçivəsində rayon ərazisində 71.951 poqonmetr müxtəlif diametrli su xətti çəkilmiş, 2183 ev birləşməsi verilmiş, 109 sayğac quraşdırılmışdır.

Ötən dövr ərzində əhaliyə 2 milyon 664 min manatlıq su və kanalizasiya xidmətləri göstərilmiş, əvvəlki debitorlar da daxil olmaqla 2 milyon 808 min manat yığım aparılaraq ödənişə 105,4 faiz nail olunmuşdur.

Sevindirici haldır ki, hazırda Xəzər rayonunun ərazisində 30 obyektin tikintisi, təmiri və yenidən qurulması işləri gedir.

Hesabat dövründə Heydər Əliyev Fondu və Dövlət Proqramı çərçivəsində Təhsil Sahəsi üzrə Şüvəlan qəsəbəsində 2 və 4 saylı internat məktəblərinin, Mərdəkan və Binə qəsəbələrində uşaq bağçalarının tikintisi və təmiri başa çatmış, Qala qəsəbəsində GENS Dünya Akademiyasının, Mərdəkan qəsəbəsində Sərhəd Xidmətinin Xüsusi məktəbinin yeni korpusunun, Buzovna qəsəbəsi, Albalılıq yaşayış massivində uşaq bağçasının, Zirə qəsəbəsində Dalğa Uşaq müəssisəsinin, səhiyyə sahəsi üzrə Buzovna qəsəbəsində Uşaq Reabilitasiya Mərkəzinin, 7 nömrəli Vərəm xəstəxanasının, Gindes adına Uşaq və yeniyetmələr üçün sümük-vərəm xəstəlikləri sanatoriyasının, mədəniyyət, gənclər və idman sahələri üzrə Türkan, Mərdəkan, Qala və Buzovna qəsəbələrində idman mərkəzlərinin və Şağan qəsəbəsində Mədəniyyət evinin və şahmat məktəbinin tikintisi hazırda davam etdirilir.

İlin doqquz ayında digər sahələr üzrə Mərdəkan qəsəbəsində Müalicə Pansionatının və Şağan qəsəbəsində Müharibə əlilləri üçün müalicə pansionatının əsaslı təmiri, Şüvəlan qəsəbəsində Şimal DRES-in ikinci blokunun, Zirə qəsəbəsində B.Sərdarov adına zavodun filialının və İmam Rza məscidinin tikintisi davam etdirilir, Buzovna qəsəbəsində Yanğın Mühafizə Bölməsinin tikintisi tamamlanmışdır.

2015-ci ilin 9 ayı ərzində Sosial Müdafiə Fondu tərəfindən əhaliyə pensiya və müavinətlərin ödənilməsi üçün tələb olunan məbləğ 28 milyon 410,2 min manat təşkil etmiş, 16 min 541 nəfər pensiyaçıya plastik kartlar vasitəsilə pensiyaların ödənilməsi təmin edilmişdir.

Hesabat dövründə Əhalinin Sosial Müdafiə Mərkəzinə ünvanlı dövlət sosial yardımı üçün 2733 ailə müraciət etmişdir ki, bunlardan 2555 ailəyə müvafiq komissiya tərəfindən ünvanlı sosial yardım təyin olunmuşdur. Rayon üzrə cəmi 3494 nəfər ailəyə 553 min 651 manat məbləğində ünvanlı yardımın ödənilməsi davam etdirilir.

Ötən dövr ərzində Məşğulluq Mərkəzinə 1004 nəfər işaxtaran vətəndaş müraciət etmişdir. Mərkəzdə qeydiyyatda olan qeyri-məşğul əhalinin 376 nəfəri münasib işlə təmin edilmişdir. İşlə təmin olunanların 35 nəfəri kvota üzrə işə düzəlmişlər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə əlaqədar Tədbirlər Planına müvafiq olaraq Heydər Əliyev adına parkda Gül bayramı təşkil olunmuş, rayonun idarə, müəssisə, təşkilatları, o cümlədən məktəbləri, yaradıcılıq mərkəzləri, uşaq bağçaları və ayrı-ayrı yaradıcı şəxslər tərəfindən müxtəlif kompozisiyalar nümayiş etdirilmişdir. Tədbirdə respublikanın tanınmış sənət adamları rayon ictimaiyyətinin nümayəndələri qarşısında maraqlı konsert proqramı ilə çıxış etmişlər.

2015-ci ilin 9 ayı ərzində Xəzər RİH Aparatına 1789 ərizə, şikayət və müraciət, 1729 xidməti sənəd daxil olmuşdur. Daxil olmuş həmin ərizə və müraciətdən 526 ərizə müsbət həll edilmiş, 1170 ərizəyə izahat və təkliflər verilmiş, 88 ərizə isə icraatdadır.

Cari ilin doqquz ayında Xəzər Rayon İcra Hakimiyyəti başçısının qəbulunda 67 nəfər vətəndaş olmuşdur. Ötən dövrdə vətəndaşların icra hakimiyyətində qəbulu keçirilmiş, 2105 nəfər iştirak etmiş və 68 müraciət səsləndirilmişdir. Müraciətlərdə asfalt örtüyünün salınması, təbii qazın verilməsi, su, kanalizasiya və nəqliyyat problemləri üstünlük təşkil etmişdir. Səyyar qəbullarda səslənən müraciətlərin əksəriyyəti həll olunmuş, digər məsələlərlə bağlı işlər üçün aidiyyəti qurumlara müraciətlər göndərilmişdir.

Daha sonra məruzə ətrafında YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi Y.Novruzov, Xəzər Su-Kanal İdarəsinin baş mühəndisi İ.Əliyev və Xəzər Rayon Qaz İstismar Sahəsinin baş mühəndisi Y.Osmanov çıxış etmişdir.

**Kamal İBADOV,**
**"Respublika".**